**2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədliyi qeydə alınmış Cəmil Poladxan oğlu Həsənlinin səlahiyyətli nümayəndəsi Həsən Sabir oğlu Şıxəliyevin qeydiyyatının ləğv edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyi qeydə alınmış Cəmil Poladxan oğlu Həsənli 20 sentyabr 2013-cü il tarixdə Mərkəzi Seçki Komissiyasına müraciət edərək Komissiyanın 31 avqust 2013-cü il tarixli 22/131 saylı qərarı ilə onun səlahiyyətli nümayəndəsi kimi qeydə alınmış Həsən Sabir oğlu Şıxəliyevin qeydiyyatının ləğv edilməsini xahiş etmişdir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müraciətə baxaraq müəyyən etmişdir ki, C.P.Həsənlinin səlahiyyətli nümayəndəsi H.S.Şıxəliyevin qeydiyyatı ləğv olunmalı və "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) namizədin, siyasi partiyaların, siyasi partiyalar bloklarının və referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələrinin statusu haqqında Təlimat"ın 3.3-cü bəndinə uyğun olaraq Mərkəzi Seçki Komissiyası tərəfindən ona verimiş lövhəcik etibarsız hesab edilməlidir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 53-cü maddələrinə və qeyd edilən Təlimatın 3.3-cü bəndinə əsasən **q ə r a r a a l ı r :**

1. 2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyi qeydə alınmış Cəmil Poladxan oğlu Həsənlinin səlahiyyətli nümayəndəsi Həsən Sabir oğlu Şıxəliyevin qeydiyyatı ləğv olunsun və Mərkəzi Seçki Komissiyası tərəfindən ona verimiş lövhəcik etibarsız hesab edilsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr Məzahir Pənahov

Katib Arifə Muxtarova

Katib Mikayıl Rəhimov